*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 505-509*

https://doi.org/10.62837/2025.8.505

**MİNARƏ QULUYEVA**
Fil.f.d
minaraguliyeva75@gmail.com

## M.P.VAQİF QOŞMALARININ MÜHÜM POETİK VASİTƏLƏRİ

**XÜLASƏ**

Məqalədə Vaqif qoşmalarının mühüm poetik vasitələrindən bəhs edilir. Burada göstərilir ki, Vaqifin qoşmalarında mühüm olan əsərin ideyasıdır. Onun qoşmalarında qafiyənin demək olar ki, bütün növlərindən istifadə olunur.

Məqalədə eyni zamanda qoşmanın bütün növlərindən ayrı-ayrılıqda danışılır.

Vaqifin qoşmalarında ən mühüm amil olan ahəngdən bəhs edilir. Heca ahəngini yaradan əsas səbəbin dilimizin zənginliyi olduğu göstərilir.

Burada semantik çalarlara malik olan təkrirlər haqqında ətraflı məlumat verilir.

Məqalədə eyni zamanda dahi şəxsiyyətlərin qoşma, vəzn, qafiyə, təkrir haqqında fikirləri verilir.

Vaqif qoşmaları heca vəznində yazılan şeirlərin zirvəsində durur!

**Açar sözlər:** qoşma, məqalə, qafiyə, qoşma poetikası, poetik xüsusiyyətlər, ahəng, semantik çalarlar

Bədii təsvir vasitələri üzərində geniş araşdırmalar aparıldıqdan sonra bəlli oldu ki, ümumi yönlərdə tipoloji ortaq cəhətlər olsa da, bədii təxəyyül sistemində yerli dil-üslub, düşüncə tərzi, ictimai-mədəni mühit və ədəbi ənənələr baxımından ciddi fərqlər vardır. İstər şeirin musiqi və ritmik durumu, istərsə də onun bədii təxəyyül sistemi hər bir xalqın mədəniyyət toplusuna xas olan özəlliklərdən asılı olaraq seçilir.

M.P.Vaqif öz qoşmalarında əlvan xalının əsrarəngiz rənglərinə bənzəyən gözəl sözlər, qeyri-adi zərifliklə səslənən qafiyələr, rədiflər, cinaslar işlədir, ifadələri böyük təmkin və ustalıqla seçir.

M.P.Vaqif qafiyə sərrastlığına çox diqqət yetirmişdir. Şair böyük ustalıqla müxtəlif qrammatik kateqoriyalara malik sözlərdən tam bir qafiyə yaradır.

*Gedibən kuyyində qıllam şivəni,*
*Yığaram başıma dostu, düşməni,*
*O ha billəm gəlməz görməyə məni*
*Barı gendən tamaşaya gələydi.* [107, s.17-18].

M.P.Vaqif qoşmalarında əsərin əsas ideyası, qayəsi qafiyəyə qurban verilmir. Əsas fikrin ifadəsi bu qoşmalarda önəmli yer tutur. Şairin böyüklüyü ondadır ki, onun qoşmalarında qafiyə məhdudluğu yoxdur.

M.P.Vaqifin qoşmalarında tez-tez qulaq qafiyələrinə də rast gəlinir “al”, “əl”, “gül”, “sadam”-“didəm”, “qəmzə”-“kimsə” kimi qulaq qayifələri çox səciyyəvidir.

Poetikada **səc** adlanan daxili qafiyəyə çox rast gəlinir. Bu daxili qafiyələr şeirdə

sanki musiqi düzəni yaradır, onu ahəngdar edir. Bu qoşmalarda orta hecalar da qafiyələndiyi üçün onlar **qoşayarpaq** adlanır. Qoşmanın qoşayarpaq formasında daxili qafiyədən istifadə edilir. Qoşayarpaq formalı qoşma şairdən daha böyük məharət tələb edir. Burada qafiyələri seçmək, ardıcıl-paralel həmqafiyə sözlər tapmaq, həmin sözləri ahəngdarlıqla, axıcılıqla işlətmək çox böyük sənətkarlıqdır. Belə qoşmalarda xüsusi ritm, intonasiya, musiqililik əsasdır. Paralel qafiyələr tapmaq, misradaxili qafiyələrdə sözləri yerində, poetik məntiqlə işlətmək şairin dildən, sözün məna çalarlarından, bədii gözəlliyindən və semantik tutumundan istifadə etmək qabiliyyətini sübut edir.

M.P.Vaqifin qoşayarpaq qoşmaları öz gözəl bədii dili, ecazkar təsvir vasitələri ilə diqqəti cəlb edir.

*Şahmar kimi gördüm saçın ucunu,*
*Həlqələnmiş, miyanına tökülmüş,*
*Qəndü-nəbat, şəkər, şəhdi-müsəffa*
*Dodağına, dəhanına tökülmüş.*

*Kuyin gülüstani-behiştə bənzər*
*Açılmış dörd yanda güllər sərasər.*
*Evin, eşiyindir tamam müəttər,*
*Müşkü ənbər eyvanına tökülmüş* [214, s.130-131]

Ə.Mirəhmədov "Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət" əsərində qafiyəyə belə tərif verir: *"Qafiyə misraların sonunda səscə bir-birinə uyğun gələn və qoşmaya xüsusi gözəllik, ahəng və aydın forma verən sözlərdir"* [101, s.31-34].

M.P.Vaqif qoşmalarında isə qafiyələr yalnız misranın sonunda deyil, ortasında da gələ bilər. Hər sonrakı bənddə qoşmanın əsas qafiyəsinə uyğun bir neçə qafiyə olur.

*Hicrində bazarın, zəlilü xarın,*
*Müştaqi-didarın, o xidmətkarın*
*Çəkib ah-zarın, çox intizarın,*
*Qövlünə ağyarın gəl eyləmə guş*. [216, s.45-46]

M.P.Vaqifin "Qurbanıyam mən", "Pəri" rədifli qoşmaları da qoşayarpağa misal ola bilər.

*Bir gözü şərlinin, səng nəzərlinin,*
*Zülfü ənbərlinin, müşk tərlinin,*
*Bir səmənbərlinin, zər kəmərlinin,*
*Bir incə bellinin qurbanıyam mən.*

*"Bir çox ülfətlinin, məhəbbətlinin,*
*Bir çox mərhəmətlinin, şəfəqqətlinin,*
*Bir pəri tellinin, gün tələtlinin,*
*Bir mahcamallının qurbanıyam mən."* [216, s.84-85]

Şairin "Pəri" rədifli qoşmasında da daxili qafiyələr vardır:
*Üz yanına tökülübdür tel nazik,*
*Sinə meydan, zülf pərişan, bel nazik,*
*Ağız nazik, dodaq nazik, dil nazik*
*Ağ əllərin əlvan hənadan, Pəri!*

Bu qoşmada *"tel", "bel", "dil"* əsas qafiyələr, "*meydan", "pərişan", "əlvan", "hənadan"* sözləri isə daxili qafiyələrdir.

M.P.Vaqifin qoşmalarında ahəng və intonasiya bədii bütövlüyün daxili keyfiyyətləridir və bunların birini digərindən ayırmaq düzgün olmazdı. Ahəng və intonasiya kompleks poetik müəyyənlikdir.

M.P.Vaqif qoşmalarında ahəng mühüm amildir. Şairin üslubu zəngin olduğuna görə onun qoşmalarının poetik ahəngi də əlvandır və çoxşaxəlidir. Natiqin üslubundakı intonasiya onun poetikasının fərdi keyfiyyətidir, ritm və ahəng isə bu intonasiyanın daxili xüsusiyyətidir. Şairin poeziyasının qafiyə zənginliyi öz qidasını klassik ədəbiyyatdan və xalq şeirindən almış, lakin yalnız ona məxsus olan orijinal keyfiyyətləri ilə poeziyamızın inkişafına böyük təsir göstərmişdir. Şərqdə qafiyə haqqında elm mövcud olmuşdur. Əssar Təbrizi qafiyə elminə həsr olunmuş "Əlvati ai tedadül-qərati" adlı kitab yazmışdır. Burada klassik şeirin poetikası kimi qafiyənin əsas xüsusiyyətləri araşdırılır, Rəvi, Qeyd, Ridf, Əlifi-təsis, Dəxil, Vəsl, xüsruc, məcid, nairə kimi qafiyə çeşidləri təhlil edilir [172, s.81-84; 173, s.21-24].

Rəvi dedikdə kök sözlərin axırıncı səslərinin eyniliyi nəzərdə tutulur.
*Heç gözəli sən tək şux görməmişəm,*
*Nə fayda hüsnünü çox görməmişəm,*
*Uzun kirpiyin tək ox görməmişəm,*
*Qaşların tərzində yay ola bilməz.* [107, s.16-17]

Rəvidən əvvəlki uzun sait ridi-əsli, uzun sait samitlə əvəz olunduqda ridi-zaib adlanır.

M.P.Vaqifin qoşmalarında dəxil deyilən qafiyə çeşidi də müşahidə olunur. Dəxil əlifi-təsislə rəvi arasındakı samitdir.
*Niqab çəkib məndən yaşınma, zalım,*
*Pərişan olubdur mənim əhvalım,*
*Əqlü huşum mənim, fikri xəyalım*
*Şux gözdə, qəmzədə bəstədir, ay qız.* [107, s.17-18]

Bu qoşmada *"zalım", "əhvalım", "xəyalım"* qafiyələrindəki "l" samiti dəxildir.

M.P.Vaqifin qoşmalarında ahəngi yaradan poetik vasitələrdən biri də hecanın yaratdığı ahəngdir. Şairin qoşma poetikasında heca əhngini yaradan səbəb dilimizin özünün ahəngidir. Vaqif xüsusi seçim ilə bu ahəngi öz qoşmalarında canlandırır. Hecada əsas xüsusiyyət sait və samitlərin açıqlıq və qapalılıq yaratması və onunla səciyyələnən ritm və ahəngidir. Bu xüsusiyyət M.P.Vaqif qoşmalarının əsas poetik xüsusiyyətlərindən biridir. Qalınla qalın, incə ilə incə saitlərin ahəngi ilə bərabər sait-

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 505-509*

samit ahəngi də bu poeziyada aydın hiss olunur.

*Ey maral baxışlı, sona sığallı,*
*Nə gözəldir səndə o qara tellər*
*Kəmənd kimi tökülübdür gərdənə,*
*Dönübdür sərasər sahmara tellər*! [107, s.57-58]

Azərbaycan dilində bütün samitlərin intonasiya yaratmaq xüsusiyyəti vardır. M.P.Vaqifin qoşmalarında bu samitlər fəaldır, alliterasiya imkanlarına malikdir.

*Vaqif ta ki, dura tamaşasına,*
*Bilməz baxa bəzəyinin hansına,*
*Billur biləklərin kəhrəbasına*
*Gül əlində qolbağına yaraşmış*. [107, s.73-74]

M.P.Vaqif qoşmalarında təkrirlər forma və məzmunca zəngindir, çoxmənalıdır, müxtəlif semantik çalarlara malikdir. Onlar hər bir misranın əvvəlində və sonunda təkrarlanır, intonasiyada dinamiklik, güc və ekspressivlik yaradır. Bu təkrirlər Vaqifin qoşma poetikasında ritmə, ritmin tempinə, ahəngə və məzmuna xidmət edir. Bu təkrirlər sadalanmış intonasiyalı olub şairin hiss və həyəcanları, duyğu və düşüncələri ilə bağlıdır.

*Bir buxağı turunc, sinəsi meydan,*
*Bir sözü cəvahir mirvari dəhan,*
*Bir maral baxışlı kirpiyi peykan,*
*Bir qaşları zülfüqarə aşiqəm*. [107, s.29-30]

Bütün dünya poeziyasında üç əsas vəzn sistemindən istifadə edilir: hecanın uzunluğuna görə metrik vəzn; hecanın sayına görə sillabik vəzn, hecanın vurğularına əsasən tonik vəzn. Azərbaycan şeirində bu vəznlərin hər biri işlədilmiş və onların hamısında gözəl sənət əsərləri yaradılmışdır. Klassik poetik ənənələri və xalq şeiri, aşıq ədəbiyyatı üzərində yetişən M.P.Vaqif yaradıcılığında həm əruz, həm də heca vəznindən istifadə olunmuşdur. Alliterasiya qədim türkdilli şeirdə həm metrik, həm də tonik vəznə tərəf inkişafa imkan yaratmışdır. Heca vəzni Vaqif qoşmalarının əsas vəzni olaraq qalmışdır. Təəssüflər olsun ki, poetikada söz sənətinin ritmik qurumu adətən əruz, qafiyə və rədif məsələləri ilə məhdudlaşır, halbuki bəlağət sahəsindəki araşdırmalar burada bir sıra başqa kateqoriyaların da daxil olduğunu göstərir. Bədii söz nəzm və nəsr şəklində oxunulur və dinlənilir. Onun emosional estetik təsiri ritm, ahəng və musiqi ilə təmin edilir. Şeir, o cümlədən Vaqif qoşmaları bir növ musiqili söz düzümüdür. Bu zaman onların emosional təsiri güclənir.

İbn Sina, Fərabi, Tusi kimi mütəfəkkirlər şeirdə musiqililiyi, axıcılığı tarazlıq, ahəngdarlıq və paralel münasibətlər sistemi kimi təhlil etmişlər. Bu alimlər şeirdə sözlərin musiqililiyi haqqında bəhs etmiş, səs durumu ilə məna arasında bir tənasüblük, bir uyğunlaşma olduğunu iddia etmişlər [172, s.12-13].

## İstifadə olunmuş ədəbiyyat

1. Füzuli, M. Seçilmiş əsərləri / tərt.ed. M.Sultanov. – Bakı: Sərq-Qərb, – 1992 - 384 s.
2. Vaqif, M.P. Əsərləri / tərt.ed. H.Araslı. – Bakı: Sərq-Qərb, – 2004. – 264 s.
3. Vaqif, M.P. Sevmək gərək: lirik şeirlər kitabı / tərt.ed. A.Sarovlu. – Bakı: Gənclik – 1987. – 321 s.
4. Məmmədov, E. Azərbaycan Sovet folklorşünaslığında təcnisin tədqiqi tarixindən / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, – Bakı: VII kitab. – 1987.

**МИНАРА ГУЛИЕВА**

## ОСНОВНЫЕ ПОЭТИЧЕСКИЕ СРЕДСТВА В ГОШМЫ М.П. ВАГИФА

### РЕЗЮМЕ

В статье рассказывается о важных поэтических средствах гошмы Вагифа. Здесь указывается, что важным в гошмы Вагифа является идея произведения.

В статье также рассказывается обо всех типах гошмы в отдельности.

Один из важнейших факторов в гошмы Вагифа – гармония. Считается, что основной причиной , создающей гармонию, является богатство нашего языка. В статье дается подробная информация о повторах, имеющих смысловые оттенки. Здесь также приводятся различные идеи великих деятелей о гошме, поэтические размере, рифме и повторе. Гошмы Вагифа стоят на вершине стихов, написанных на слоговой основе.

**Ключевые слова:** гошма, статья, рифма, поэтика гошмы, поэтические особенности, гармония, семантические оттенки

**MINARA GULUEVA**

## THE IMPORTANT POETIC DEVICES OF M. P. VAGIF’S GOSHMAS

### SUMMARY

**Key words:** goshma, article, rhyme, poetics of goshma, poetic features, harmony, semantic nueances

The article deals with the important poetic devices of Vagif’s goshmas. Here it is shown that the idea of the work is very important in Vagif’s goshmas.

At the same time all the types of goshmas are separately spoken about in the article. One of the most important factors of Vagif’s goshmas is harmony. It is believed that the main reason for creating syllabic harmony is the richness of our language. The article provides detailed information about repetitions that have semantic shades.. At the same time various ideas of genius personalities on goshma, meter, rhyme, repetition are given here. M.P.Vagif’s goshmas stand at the top of the poems written in the syllabic verse.

**Rəyçi: filologiya elmləri doktoru Təhsin Mütəllimov**